AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

# AZƏRBAYCANDA
# ARXEOLOJİ TƏDQİQATLAR
# 2015-2016

Bakı–2017

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ

# АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ 2015-2016

Баку–2017

NATIONAL ACADEMY OF SCIENCES OF AZERBAIJAN
INSTITUTE OF ARCHAEOLOGY AND ETHNOGRAPHY

# ARCHAEOLOGICAL RESEARCHES IN AZERBAIJAN 2015-2016

Baku–2017

Məsul redaktor: **M.N.RƏHİMOVA**
tarix üzrə elmlər doktoru, professor

Redaksiya heyəti: **T.Ə.Bünyadov**
AMEA-nın həqiqi üzvü

**İ.A.Babayev**
AMEA-nın müxbir üzvü

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLAR – 2015-2016.
Bakı, 2017,- 496 səh.

**ISBN 978-9952-473-05-6**

AZ1143, Bakı şəhəri
Hüseyn Cavid prospekti, 115
Tel.: +(994)12 4393649
Internet səhifə: www.arxeologiya.az
E-mail: info@arxeologiya.az

© Arxeologiya və Etnoqrafiya İnstitutu, 2017

## DAMCILI MAĞARASINDA ARXEOLOJİ QAZINTILARIN BƏRPASI

Qazax rayonu

A.Ə.Zeynalov, Y.Nishiyaki, M.M.Mansurov, H.Nakata, K.Şimoqama, Ç.Akaşi, S.Aray, Y.Hayakawa, M.Ebina, Y.V.Məmmədov, Ş.A.Səlimbəyov, P.Q.Babai, L.A.Zeynalova




**Şəkil 1.** Tədqiqat aparılan ərazinin xəritəsi.

### GİRİŞ

Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun təşkil etdiyi Qaraca Paleolit arxeoloji ekspedisiyasının Tokio Universiteti və Tokio Muzeyinin arxeoloji ekspedisiyası ilə birgə 2016-cı ilin yay mövsümündə əsas tədqiqat istiqaməti Cənübi Qafqazda erkən əkinçilik cəmiyyətinin yaranması və inkişafını (təkamülünü) elmi faktlar əsasında aydınlaşdırmaqdan ibarət olmuşdur.

2008-ci ildən başlayaraq bu istiqamətdə Azərbaycan və Yaponiya alimləri birgə tədqiqatlar aparır. Xüsusilə, Tovuz rayonunda neolit dövrünə aid iki yaşayış yerində - Göytəpə və Hacı Ələmxanlı təpədə aparılan arxeoloji qazıntılar erkən əkinçilik cəmiyyətlərin yaranması haqqında dolğun informasiya verməklə yanaşı, ümümilikdə, Cənubi Qafqazda bu cəmiyyətlər və baş verən hadisələr haqqında müəyyən elmi təsəvvür formalaşdırıb.

Bu tədqiqatların əsas nəticələrindən biri ondan ibarətdir ki, əkinçiliyin ilkin inkişaf rüşeymləri Yaxın Şərqin qədim mədəniyyət mərkəzləri ilə bağlı olsa da, təsərrüfatın bu forması Cənübi Qafqaza hazır ənənə şəklində gəlməyib, bu yerli iqtisadiyatın təkamülü nəticəsində yaranmışdır. Eyni zamanda qeyd etmək lazımdır ki, Cənubi Qafqazın erkən əkinçilik cəmiyyətləri Yaxın Şərqin qədim əkinçilik mədəniyyəti mərkəzləri ilə vəhdət halında intişar edirdi.

Məsələyə aydınlıq gətirmək üçün bu tədqiqatları davam etdirmək – daha qədim mənbələrə müraciət etmək zərurəti yaranmışdır. Yəni, elmi ehtimallara əsasən yerli erkən kənd təsərrufat formalarının yaranma köklərinin mezolit dövründə axtarılması məqsədəuyğun idi.

Hal hazırda ən qədim erkən əkinçilik yaşayış yeri Hacı Ələmxanlı təpədə müəyyən olunub. Onun yaranma sı haqqındakı elmi şərhlər eyni regionda daha gec (məsələn, Göytəpə) və qonşu ölkələrdə daha qədim (məsələn Kmlo, Kotias Klde) abidələri ilə müqayisəli təhlilə əsaslanır. Bu da, Orta Kür hövzəsində erkən kənd təsərrufatı yaşayış yerlərinin sıx olduğu zaman, mezolit düşərgələri haqqında etibarlı dəlil olmadığından irəli gəlir. Bunları nəzərə alaraq, Azərbaycanın qərb bölgəsində Orta Kür hövzəsini qismən əhatə edən Qazax rayonundakı mezolit abidələrinin tədqiqi çox əlverişli idi. Bu ərazidə isə bu günədək məlum olan yeganə mezolit düşərgəsi Qazax rayonunda yerləşən Damcılı mağarasıdır və məhz buna görə, 2016-cı ilin ekspedisiyanın əsas tədqiqat istiqaməti Damcılı mağarasında arxeoloji qazıntı işləri aparmaq olmuşdur.

Qazax rayonunda yerləşən Damcılı mağarası 1953-cü ildə S.N.Zamyatnin və M.M.Hüseynov tərəfindən aşkar olunmuşdur. Damcılı mağarası Azərbaycan ərazisində aşkar olunmuş ilk paleolit düşərgəsidir.

1956-1957-ci illərdə M.M.Hüseynovun rəhbərliyi altında Paleolit arxeoloji ekspedisiyası Damcılı mağara duşərgəsində arxeoloji qazıntı işləri aparmışdır. Damcılı duşərgəsində aparılan arxeoloji qazıntılar zamanı mağarada çöküntünün qarışıq olması muəyyən edilmiş və ona gorə də çöküntünün stratiqrafiyasını təyin etmək mümkün olmamışdır. Damcılı mağara duşərgəsində aparılan arxeoloji qazıntılar zamanı 7 minə qədər daş məmulatı və 2 mindən çox ovlanmış heyvanların sumukləri tapılmışdır. Damcılı mağara duşərgəsindən aşkar olunmuş daş məmulatların texniki və tipoloji xüsusiyyətlərinə görə M.M.Hüseynov onları orta və üst paleolit, mezolit və neolit dovrlərinə aid etmişdir.

## DAMCILI MAĞARASINDA ARXEOLOJİ QAZINTI İŞLƏRİ

Damcılı mağarası Qazax şəhərində təxminən 20 km şımal-qərbdə və Daş Salahlı kəndindən təxminən 3 km qərbdə Avey dağın şərq ətəyində yerləşir (şəkil 1). Avey dağı əsasən yuxarı təbaşir suxurlarından ibarətdir. Mağara ərazidə ən geniş yayılmış torpaq suları olan yerdə yerləşir.

Arxeoloji qazıntılara başlamazdan əvvəl lazer baxışı üsulu ilə ərazidə topoqrafik tədqiqatlar aparıldı. Bu tədqiqatlar həmin dərədə yan-yana yerləşən iki mağaranın olduğunu göstərdi. Bu mağaralarda arxeoloji qazıntı işləri aparıldı. Şərti olaraq mağaralara Damcılı-1 və Damcılı-2 adları verildi (şəkil 2).




**Şəkil 2**. Arxeoloji qazıntılar aparılın sahələr.




**Şəkil 3**. Damcılı mağarası. Qırmızı rənglə 2016-ci ildə qoyulan şurflardı. Sol tərəfdə 1950-ci illərdə Damcılı-1 mağarasında qazılan sahələrdi.

## DAMCILI-1 MAĞARASI

Mağaranın tədqiq olunan bu sahəsi Damcılı mağarası adlandırılır. Azərbaycanda tanınmış yer olan Damcılı yerli əhalinin və qonaqların istirahət yerlərindən biridir. Mağaranın eni 17 metr, uzunluğu 7,3 metr, hündürliyi isə 4,2 metrdir. Hal hazırda da mağaranın tavanından yeraltı sular qayaların arasından süzülərək damcı şəklində axır.

Yuxarıda qeyd olunduğu kimi, mağara 1953-cü ildə kəşf olunmuş, 1956-1957-ci illərdə isə sahə genişləndirilərək arxeoloji qazıntılar aparılmışdır. Hal-hazırda bu sahələr, istirahat ərazisini abadlaşdırmaq məqsədi ilə betonlaşdırılıb və asfalt vurulub. Bunu nəzərə alaraq arxeoloji qazıntı üçün yer bu sahələrdən bir qədər aralıda seçildi. Kəşfiyyat şurfları şimaldan cənubə qazıldıqca ardıcıl olaraq nömrələndi (şəkil 3). 1-6-cı şurflar Damcılı-2 adlandırdığımız yerdə qazıldı. 7-10-cu şurflar isə 50-ci illərdə qoyulan şurflardan bir qədər aralıda qazıldı.

**Şurf 7.** 7-ci şurf Damcılı-1 mağarasının şimal-şərq qırağında eni 1 metr uzunu 2 metr sahədə Qaya divarın dibində qazıldı (şəkil 3). Şurfun dərinliyi 3,6 metr idi. Aşkar olunan təbəqələrdə qarışıqlıq müşahidə olunmadı, təbəqələrdən neolit dövründən orta əsrlərə qədər maddi mədəniyyət qalıqları aşkar olundu.

Daha çox diqqəti cəlb edən 1,5 metr dərinliyindən çıxan neolit təbəqəsi idi. Baxmayaraq ki ocağın özü qeyd olunmamışdır, lakin təbəqədə onun izləri müşahidə olunurdu (kül və ocaqdan əmələ gəlmiş tünd şabalıdı rəngli çöküntülər). Görünür, bu qazıntı sahəsinin az olduğu ilə bağlıdır, lakin əldə olunan arxeoloji materiallar burada neolit dövründə yaşayış olduğunu göstərir. Gil qab qırıqlarının azlığına bağmayaraq onlarda Gəncə-Qazax zonasında yerləşən Goytəpə və Şomutəpə, eyni zamanda Şulaveri kimi abıdələr ilə oxşarlığı var. Maraqlıdır ki saxsı fraqmentləri yalnız təbəqənin üst layından çıxdı, əsas 1 metrə çatan təbəqənin qalan hissəsində isə saxsı yoxdur. Təbəqənin alt laylarından obsidian və çaxmaq daşından xırda qəlpələr, trapes şəkilli və lövhə üzərində alətlər, çay daşından hazırlanmış qaşovcuq və digər daş məmulatı aşkar olundu (şəkil 4, 5). Bu alətlərdə Hacı Ələmxanlı təpədə aşkar olunan tapıntılarla oxşarlıq müşahidə olunur, bu isə onu göstərir ki, erkən neolit cəmiyyətləri mağara sığınacaqlardan imtina etmirdilər.



**Şəkil 4.** Damcılı-1. 7-ci şurfun neolit təbəqəsi.




**Şəkil 5.** Damcılı-1, şurf №7. Mezolit/Neolit təbəqəsindən mikrolit alətlər.

Neolit təbəqəsinin altından təxminən 30 sm qalınlığında olan sarı gil təbəqəsi və tərkibində diametri 10-15 sm çatan çoxlu çay daşı çıxdı. Təxminən 3,2 metr dərinlikdən maili gedən qaya divarı göründü. Həm qazılan sahənin azlığından həm də torpaq suları olduğuna görə qaya divarının nə qədər maili getdiyini müəyyən etmək olmadı.

**Şurf 8.** 8-ci şurfun eni 1 metr, uzunluğu 3 metr idi və qaya divarına perpendikulyar qazıldı. Təxminən 1 metr dərinlikdə ən azı iki daş qutu qəbri aşkar olundu. Qəbirlər qaya divarına, demək olar ki paralel yerləşirdilər (şəkil 3, 6). Hər qəbirdə bir skelet var idi, hər tərəfdən düzbucaqlı dördbucaq formada sal daşlarla əhatə olunmuş və daş örtüyü də sal daşlar idi. 2016-cı ilin tədqiqatı kəşfiyyat xarakteri daşıdığından və əsas məqsədi daha qədəm neolit və mezolit təbəqələrini aşkar etmək olduğundan 8-№-li şurfda qazıntı dayandırıldı.

Buna baxmayaraq qazılan sahəsində stratiqrafiyanı müəyyən dərəcədə təsvir etmək mümkün oldu. Yuxarı lay, təxminən 70 sm, boz rəngli torpaqdan ibarətdi, laydan çoxlu əhəngdaşı fraqmentləri çıxdı. Bu layın altında qırmızıya çalan sabalıdı rəngli torpaq idi və qeyd olunan qəbirlər bu aşağı layda qazılmışdırlar.

**Şurf 9.** 9-cu şurf 8 və 7 №-li şurfların arasında qazıldı. Bu şurfun əsas məqsədi 7№-li şurfda aşkar olunmuş stratiqrafiyanı daha geniş sahədə tədqiq etmək idi. Burada ölçüsü 2x2 metr olmaqla 1 kvadrat qazıldı (şəkil 3). Şurfun dərinliyi 4 metrə çatsa da, əsas süxura bu tədqiqat mövsümündə çıxmadıq. Əldə olunan stratiqrafiyada çox aydın mədəni təbəqələrin ardıcıllığı izlənir. Üst laydan orta əsr dövrünə aid maddi mədəniyyət qalıqları aşkar olundu. Təxminən 1,5 metr qalınlığında olan orta əsr təbəqəsinin altında neolit və daha qədim təbəqələr aşkar olundu. 7-№-li şurfda olduğu kimi, bu kəşfiyyat şurfunda da neolit təbəqəsinin üst layında az sayda gil qab qırıqları aşkarlandı, alt layı isə tam keramikasızdır. Eyni zamanda neolit təbəqəsinin alt layından çox maraqlı daş məmulatı aşkar olundu: mikro lövhələr və bir erkən neolit və ya mezolit dövrünə aid olan həndəsi alət. Ən maraqlısı odur ki, bu təbəqə lal təbəqənin üstündə yerləşir, onun altında isə orta paleolit təbəqəsi yerləşir. Orta paleolit təbəqəsindən aşkar olunan alət levallua texnikası əsasında hazırlanıb (şəkil 7), həmin təbəqədən ocaq layı da aşkarlandı.




**Şəkil 6.** Damcılı-1, şurf №8. Daş qutu qəbirlər.

9-cu şurfdan əldə olunan nəticələr çox əhəmiyyətlidir. Çünki ilk dəfədir ki, Damcılı mağarasında qarışmamış və ardıcıl yerləşərək orta paleolit, lal təbəqə, neolit, mezolit və orta əsr təbəqələri aşkarlandı. Əldə olunan arxeoloji tapıntıların azlığı mağarada bu dövrlərdə insanların necə istifadə etdikləri haqqında qəti söz deməyə hələ imkan vermir.

**Şurf 10.** 10-cu şurf eni 1 metr, uzunluğu 4 metr və 8-ci şurf kimi qaya divarına perpendikulyar qazıldı. Bu şurfun stratiqrafiyası, demək olar ki 8-ci şurfla eynidir. Bu şurfda da dəş qutu qəbri çıxdığından, bu sahəni toxunulmaz qoyub şurfun şərq hissəsinin dərinləşdirdik. Təxminən 3 metr dərinlikdə qayaya çatdıq. Görünür, qaya divarı maili gedir və bu sahədə biz qaya divarına dirəndik. Həm də onu qeyd etmək lazımdır ki 10-cu şurfun qabağındaki divarda iri çat var və hal hazırda da ordan su axır. Ola bilsin, bu sahə qədmidə də yaşayış üçün istifadə olunmayıb.



**Şəkil 7.** Damcılı-1, şurf №9. Orta paleolit təbəqəsindən levallua qəlpəsi.



**Şəkil 8.** Damcılı-2. 1№-li şurf. Daş məmulatı.

**DAMCILI-2 MAĞARASI**

Damcılı-1 mağarasından təxminən 100 metr şərqə tərəf başqa bir yaşayış üçün əlverişli mağara var – Damcılı-2 (şəkil 2). Bu sığınacağın təxminən 45 metr eni, 8 m uzunluğu, 3,2 m hündürlüyü və qabağında 8,4 metirlik geniş bir terrasası var. Kecən əsrin 50-ci illərində bu sahənin M.M.Hüseynov tərəfindən tədqiq olunduğu haqqında heç bir məlumat yoxdur.

Tədqiq olunan sahədə 6 şurf qoyulmuşdu. Şurflar ardıcıl mağaranın şərq qırağından başlayaraq nömrələnmişdi. Kəşfiyyat şurflarından orta əsr dövrünə aid keramika fraqmentləri aşkarlandı. Həmin təbəqələrdən bir neçə daş məmulatı da tapıldı, daha qədim dövrə aid məmulat tapılmadı. 1№-li şurfdan 3 ədəd daş tapıldı – iki qəlpə (şəkil 8. 1, 2) və nukleus (şəkil 8. 3). 2-ci şurfdan isə 1 ədəd nukleus qalığı tapıldı.

**DAMCILI MAĞARASININ ƏTRAFINDAKİ ƏRAZİLƏR**

**Qarabulaq.** Damcılı mağarasından təxminən 1 km cənub-şərqdə digər sərin su bulaqı və ətrafında əhalinin istirahətı üçün abadlaşmış yer Qarabulaq adlanır (şəkil 1). Əraziya baxış zamanı bir neçə ədəd obsidiandan qəlpə tapıldı. Bunu nəzərə alaraq, bir neçə şurf qazıldı (şəkil 9). Bir neçə ədəd orta əsr keramikası aşkar olundu. Obsidian qəlpələri nəzərə alınsa, güman etmək olar ki, bu tapıntılar nəinki orta əsr bəlkə də tunc dövrünün insan yaşayışın izlərini subut edir.

**Korbulaq.** Damcılı mağarasından təxminən 2 km qərbdə Korbulaq deyilən yerdir. Hal hazırda bulaqda su yoxdur və əhalinin dediyinə görə, yeraltı boru vasitəsi ilə bulağın suyunu qabağa çəkiblər, lakin biz nə borunun nə də suyun izlərini görmədik (şəkil 1, 10).

1957-ci ildə M.M.Hüseynov bu ərazidə arxeoloji tədqiqatlar aparmış və kəşfiyyat işləri zamanı qırmızı rəngli çaxmaq daşından qəlpələr tapmışdı. M.M.Hüseynov hesabatında qeyd edir ki, belə çaxmaqdaşı parçaları Damcılı mağarasının ətrafında da tapılmışdı. Korbulağın yaxınlığında yerli əhalinin su aparmaq üçün qazdıqları xəndəyin atılmış torpağından iki ədəd daş alət tapılmışdır. Müəllifin fikrincə, texniki və tipoloji xüsusiyyətlərinə görə alətləri orta paleolit dövrünə aid etmək olar.

2016-ci tədqiqat mövsumunda bu əraziyə gəlməyin məqsədi təkrar baxış keçirmək və zəruri olsa kəşfiyyat şurfu qazmaq idi. Bulağın yeri dağın döşündə 4 m hüdürliyində və 8 m enində nəhəng bir qayanın dibində olub. Təkrar baxış zamanı daş məmulatı aşkar olunmadı, yalnız orta əsr keramikasının fraqmentləri tapıldı.

## YATAQ YERİ

Yataq Yeri paleolit tapıntı yeri Qazax rayonunun I və II Şıxlı kəndləri arasındakı Acıdərənin şimal üzündə yerləşir. Tapıntı yeri 1963-cü ilin yazında M.Hüseynovun başçılığı ilə aparılan arxeoloji kəşfiyyat işləri zamanı qeydə alınmışdır. Sonralar isə M.M.Mansurov tərəfindən tədqiq olunmuşdu. Düşərgənin salındığı sahə dağətəyi maili düzənliklə Kür çayının üçüncü terrasının qovuşduğu zolağa düşür. M.M.Mansurova görə, buradan yuxarı paleolit, mezolit, eneolit və neolit dövrünə aid daş məmulatı aşkar olunmuşdu. Bunları nəzərə alaraq, tapıntı yerində arxeoloji şurf qazmaq qərara alındı.

2016-cı ilin tədqiqat mövsümündə Yataq Yeri paleolit tapıntı yerindən bir qədər aralıda Yataq Yeri-2 və Yataq Yeri-3 paleolit tapıntı yerləri qeydə alındı (yeni paleolit yerləri haqqında ətraflı bax bu topluda "Qaraca paleolit arxeoloji ekspedisiyasının 2015-2016-cı il tədqiqatların nəticələri).




**Şəkil 9.** Qarabulaq. Rəqəmlərlə qazılan şurfların yerləri göstərilib.

Nəzərə alaraq ki, Yataq Yeri paleolit tapıntı yeri üç terrasda yerləşir, hər birində arxeoloji kəşfiyyat şurfu qazmaq qərara alındı (şəkil 11). Şurfların heç birində mədəni təbəqə aşkarlanmadı. Yalnız qədim çay yataqlarının izləri aşkar olundu. Tədqiqat zamanı ərazidən yerüstü daş məmulatı toplandı, lakin mezolit dövrünə aid heç bir məmulat tapılmadı.



**Şəkil 10.** Korbulaq.




**Şəkil 11.** Yataq Yeri.

## NƏTİCƏ

Damcılı mağarası 1953-cü ildə aşkar olunmuş və 1956-1957-ci illrədə düşərgədə əsaslı arxeoloji qazıntılar aparılmışdır.

Ümumiyyətlə, Azərbaycanda qədim daş dövrün öyrənilmə tarixi məhz Damcılı mağarasının kəşfi və tədqiqatlarından başlanır. Çünki Damcılı mağarası Azərbaycanın ərazisində aşkar olunmuş ilk paleolit düşərgəsidir. Abidədən paleolit, mezolit, neolit və orta əsr dövürlərinə aid minlərlə maddi mədəniyyət qalıqları aşkar olunsa da, qazılan sahələrdə çöküntülər qarışıq olduğundan onların stratiqrafiyasın müəyyən etmək mümkün olmamışdır.

Məhz bunun nəticəsidir ki, tarixin çox vacib, keçid dövrlərinə aid olan tək-tək təsadüf edilən nadir tapıntıları dəqiqliklə müəyyən etmək olmurdu, misal üçün bu tapıntılar mezolit və ya neolit dövrlərinə aiddir. Bu isə tədqiqatlar zamanı qoyulan suallardan ən mühümlərindəndir.

2016-ci ilin tədqiqatlarında müəyyən olundu ki, mağara iki hissədən ibarətdir, Damcılı-1 və Damcılı-2. Ona baxmayaraq ki, mağaralar bir-birinə yaxın yerləşirlər, qazıntılar göstərdi ki, Damcılı-1 mağarasında yaşayış ən azı orta paleolit dövründən başlayır, Damcılı-2 mağarasında isə yalnız orta əsrlərin izləri var.

2016-cı ilin ən mühüm nəticəsi Damcılı-1 mağarasında qarışılmamış çöküntülərin aşkarlanmasıdır. Təbəbqələrin ardıcıllığı, ordan tapılan "in situ" artefaktlar bu mağarın istifadəsi ən azı orta paleolit dövründə başlanmasını və son mezolit və ya erkən neolit, son neolit və orta əsrlərdə davam olduğunu göstərir.

Orta paleolit dövrünə aid levallua üsulu ilə hazırlanan qəlpənin "in situ" tapılması çox əhəmiyyətlidir. Keçən əsrin 50-ci illərində aşkar olunan təxminən 20 ədəd orta paleolit daş əmək alətləri, qeyd olunduğu kimi qarışıq təbəqədən toplanmışdı və bu tapıntılarla bağlı müəyyən fərziyyələr də söylənirdi, o cümlədən – Damcılı mağarasının mustye alətləri Azıx mağarasının 3-cü orta paleolit təbəqəsindən aşkar olunan alətlərdən qədimdir. Bu ilkı və yaxın gələcəkdə nəzərdə tutulan Damcılı mağarasında tədqiqatlar bu məsələyə aydınlıq gətirə bilər.

Digər çox əhəmiyyətli nəticə mezolit-neolit dövrlərinə aid qarışmamış təbəqələrin aşkarlanmasıdır. Bu tapıntıların tədqiqi Cənubi Qafqazın tarixdən qabaqkı dövrü haqqında çox əhəmiyyətli nəticəsi ola bilər, çünki bunlar bu ərazidə yaşayışın mezolit və neolit dövrlərində hələ keramika az istifadə olduğu vaxtdan başlanmasını və uzun müddət sürdüyünü göstərir.

Ümumiyyətlə, 2016-cı tədqiqatların əsəs nəticəsi Damcılı mağarasının şərq qırağında qarışılmamış təbəqələrin aşkarlanmasıdır. Burada kompleks tədqiqatların davamı Damcılı mağarasını Cənubi Qafqazda Yuxarı Pleystosendən Qolosenə keçən dövrdə mədəniyyətlərin inkişafı öyrənilməsi üçün çox mühüm abidə ola bilər.

А.А.Зейналов, И.Нишияки, М.М.Мансуров,
Х.Наката, К.Шимогама, Ч.Акаши, С.Арай,
Ю.Хаякава, М.Эбина, Я.В.Мамедов,
Ш.А.Селимбеков, П.Г.Бабаи, Л.А.Зейналова

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ 2015-2016 ГГ. В ПЕЩЕРЕ ДАМДЖЫЛЫ

**РЕЗЮМЕ**

История изучения палеолита в Азербайджане берет свое начало с открытия пещеры Дамджылы. Пещера была открыта С.Н.Замятниным, М.М.Гусейновым в 1953 году и это был первый палеолитический памятник на территории Азербайджана. В 1956-1957 годах в пещере проводились археологические раскопки, положившие начало планомерным систематическим исследованиям древнекаменного века.

Во время раскопок получено несколько тысяч артефактов, относящихся к палеолиту, мезолиту, неолиту и средним векам. Однако нарушенность слоев не позволила выявить стратиграфию, что отразилось на значимости памятника, в решении ряда вопросов, в том числе периодизации каменного века.

В частности, до сих пор, дискуссионным остается вопрос принадлежности ряда артефактов к мезолиту или неолиту, а это очень важный, ключевой вопрос в контексте выяснения происхождения и развития самых ранних земледельческих обществ на Южном Кавказе.

Главной задачей совместной азербайджано-японской экспедиции в гроте Дамджылы и была попытка ответить на этот вопрос. Данные о неолитических поселениях на территории Азербайджана свидетельствуют о местных корнях этой формы хозяйства, несмотря на имеющие место контакты с самыми ранними земледельческими обществами Плодородного Полумесяца Ближнего Востока.

Главным итогом экспедиции 2016 года было выявление в гроте Дамджылы не потревоженных стратифицированных культурных слоев, с очень четкой последовательностью культур: среднего палеолита, стерильный слой, мезолит/неолит, средние века.

A.A.Zeinalov, Y.Nishiaki, M.M.Mansurov,
H.Nakata, K. Shimogama, C.Akashi, S.Arai,
Y.Hayakawa, M.Ebina, Y.V.Mammadov,
Sh.A.Salimbayov, P.G.Babai, L.A.Zeinalova

THE RESUMPTION OF ARCHAEOLOGICAL EXCAVATIONS IN THE CAVE OF DAMJILI

**SUMMARY**

History of the study of the Paleolithic Age in Azerbaijan dates back to the discovery of the cave Damjyly. The cave was discovered by Zamyatnin and M.M.Husseinov in 1953 and it was the first Paleolithic monument on the territory of Azerbaijan. In 1956-1957, in the cave were carried out archaeological excavations, which started a planned systematic research of the Stone Age.

During the excavations several thousand artifacts referring to the Paleolithic, Mesolithic, Neolithic and Middle Ages were obtained. However, since the layers were disturbed it did not allow revealing the stratigraphy, which was reflected on the significance of the monument, in solution of a number of issues, including the periodization of the Stone Age.

In particular, belonging of a number of artifacts to the Mesolithic or Neolithic period remains a debatable question so far, and this is very important, the key question in the context of identifying the origination and development of the earliest farming communities in the South Caucasus.

The main task of the joint Azerbaijani-Japanese expedition in the grotto Damjili was an attempt to answer this question as well. Existing facts about the Neolithic settlements in the territory of Azerbaijan testify to the local roots of this form of farming, in spite of the contacts taking place with the earliest agricultural societies of the Fertile Crescent of the Middle East.

The main result of the expedition in 2016 was to identify not disturbed stratified cultural layers in the grotto Damjyly, with very distinct sequence of cultures: Middle Paleolithic, sterile layer, Mesolithic/Neolithic Age and the Middle Ages.

# MÜNDƏRİCAT

**AZƏRBAYCANDA 2015-2016-ci illərdə APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLAR** ........ 10
M.N.Rəhimova

## QƏDİM DAŞ DÖVRÜ

**PALEOLİT ARXEOLOJİ EKSPEDİSİYASININ 2015-ci ildə APARDIĞI ÇÖL-TƏDQİQAT İŞLƏRİNİN İLKİN NƏTİCƏLƏRİ** ........ 26
Ə.Q.Cəfərov, C.S.İsmayılov, A.Ə.Cəfərova, F.V.Yaqubov, Ü.M.Həsənova

**QARACA PALEOLİT ARXEOLOJİ EKSPEDİSİYASININ 2015-2016-cı illərdə APARDIĞI TƏDQİQATLARIN NƏTİCƏLƏRİ** ........ 33
A.Ə.Zeynalov, S.A.Kulakov, İ.A.İdrisov, P.Q.Babai,
T.V.Babayeva, M.M.Hüseynova, S.F.Fərmanlı, A.F.Bağırova

**PALEOLİT ARXEOLOJİ EKSPEDİSİYASI QAX-ZAQATALA DƏSTƏSİNİN 2015-2016-cı illərdə APARDIĞI ÇÖL-TƏDQİQATININ NƏTİCƏLƏRİ** ........ 40
M.M.Mənsurov, F.M.Muradova, İ.A.Hacıyev

## NEOLİT VƏ ENEOLİT DÖVRLƏRİ

**МЕТОДЫ ИЗУЧЕНИЯ И НАУЧНОГО ДОКУМЕНТИРОВАНИЯ АРХЕОЛОГИЧЕСКОГО КОМПЛЕКСА ГОБУСТАН** ........ 48
М.Н.Фараджева

**GÖYTƏPƏ QƏDİM YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR** ........ 62
F.E.Quliyev, P.P.Qasimov, V.Ə.Ələkbərov, Ş.A.Səlimbəyov, Y.V.Məmmədəov

**QALAYERİNDƏ 2015-2016-cı illərdə APARILMIŞ TƏDQİQATLAR** ........ 76
N.Ə.Müseyibli, A.M.Ağalarzadə, G.K.Axundova, A.A.Qasımov

**АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ 2015-2016 гг. «МУГАНСКОЙ НЕОЛИТ-ЭНЕОЛИЧЕСКОЙ ЭКСПЕДИЦИИ»** ........ 81
Т.И.Ахундов, В.А.Махмудова, А.М.Гасанова, Г.Х.Рамазанлы, А.А.Рахманов

**"QARABAĞ NEOLİT-ENEOLİT EKSPEDİSİYASI"NIN 2015-2016-cı illərdə QARABAĞ DÜZƏNLİYİNDƏ APARDIĞI ARXEOLOJİ TƏDQİQAT İŞLƏRİ** ........................ 87
X.İ.Alməmmədov, N.V.Quluzadə

**BABƏK VƏ CULFA RAYONLARI ƏRAZİSİNDƏ 2015-ci ildə APARILMIŞ ARXEOLOJİ QAZINTI İŞLƏRİ** ........................ 96
A.Q.Seyidov (UNEC)

## TUNC VƏ DƏMİR DÖVRLƏRİ

**İLK TUNC DÖVRÜ QARAÇAY NEKROPOLUNDA ARXEOLOJİ TƏDQİQATLAR** ................ 100
N.Ə.Müseyibli, A.M.Ağalarzadə, G.K.Axundova, A.A.Qasımov

**"MAXTA ARXEOLOJİ EKSPEDİSİYASI"NIN 2015-ci il TƏDQİQATLARI** ........................ 105
S.H.Aşurov, S.A.Hüseynova, F.A.Əliyeva

**РЕЗУЛЬТАТЫ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПОК 2015–2016 годов НА ПОСЕЛЕНИИ МОЛЛАБУРХАНТЕПЕ** ........................ 112
Д.Л.Мусаев

**"QARABAĞ ARXEOLOJİ EKSPEDİSİYASININ 2015-2016-cı illərdəki ARAŞDIRMALARI** ........................ 117
H.F.Cəfərov, D.H.Cəfərova, C.V.Həsənova (UNEC)

**"ŞABRAN ARXEOLOJİ EKSPEDİSİYASI"NIN 2016-cı il TƏDQİQATLARI** ........................ 129
S.H.Aşurov, S.A.Hüseynova, F.A.Əliyeva
T.V.Babayeva, İ.A.Nəhmətova, N.V.Məmmədova, A.Q.Abdullayeva

**UZUN RƏMƏ VƏ ZƏYLİK QƏBİR ABİDƏLƏRİNDƏ APARILAN ARXEOLOJİ TƏDQİQATLAR (2015-2016-cı illər)** ........................ 135
B.M.Cəlilov, N.Ə.Axundova, T.Ə.Mirzoyeva

**NAFTALAN-GORANBOY ARXEOLOJİ EKSPEDİSİYASININ 2015-2016-cı illərdə APARDIĞI ARXEOLOJİ TƏDQİQATLAR HAQQINDA** ........................ 145
M.M.Hüseynov

**ŞAHTAXTI ARXEOLOJİ ABİDƏLƏR KOMPLEKSİNDƏ 2015-2016-cı illərdə APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLAR** ........................ 151
Q.H.Ağayev, C.Ə.Novruzov, Ş.V.Həsənov, E.S.Musayev

**2015-2016-cı illərdə PLOVDAĞ ARXEOLOJİ ABİDƏLƏR KOMPLEKSİNDƏ TƏDQİQATLAR** ........................ 155
B.İ.İbrahimli, Q.İ.Qədirzadə, F.Y.Səfərli, T.F.Xəlilov, C.F.İbrahimova, L.N.Həsənova

**2015-2016-cı illərdə GƏDƏBƏY ARXEOLOJİ EKSPEDİSİYASININ GƏDƏBƏY RAYONUNDA APARDIĞI ARXEOLOJİ TƏDQİQATLARIN YEKUNLARINA DAİR** ............ 170
T.N.Göyüşova

**TƏRTƏR RAYONU ƏRAZİSİNDƏ 2016-cı ildə APARILMIŞ ARXEOLOJİ QAZINTI VƏ TƏDQİQAT İŞLƏRİ** ............ 177
A.Q.Seyidov (UNEC)

**ŞƏKİ-QAX-OĞUZ ARXEOLOJİ EKSPEDİSİYASININ 2015-2016-cı illərdə APARDIĞI TƏDQİQATLARIN NƏTİCƏLƏRİ** ............ 181
N.M.Muxtarov, İ.N.Bədəlova, B.Ə.Məmmədova

**АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ 2015-2016 годах В ХЫНАЛЫГЕ** ............ 188
И.Н.Алиев, Г.Ш.Агаев, Дж.И.Алиев

## ANTİK DÖVRÜ VƏ İLK ORTA ƏSRLƏR

**QƏBƏLƏ ARXEOLOJİ EKSPEDİSİYASI ANTİK QƏBƏLƏ DƏSTƏSİNİN ÇÖL-TƏDQİQAT İŞLƏRİ HAQQINDA** ............ 194
İ.A.Babayev, İ.M.Nəcəfova, Ü.R.Heydərova, L.X.Mustafayev

**QƏBƏLƏ ANTİK VƏ İLK ORTA ƏSRLƏR DÖVRÜ ARXEOLOJİ EKSPEDİSİYASININ 2015 və 2016-cı il QAZINTILARININ NƏTİCƏLƏRİ** ............ 204
C.T.Eminli, E.Ə.İskəndərov, T.T.Hüseynova

**2015-2016-cı illərdə MEYDANTƏPƏ YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR** ............ 215
Ə.H.Bədəlov

**SALYAN ARXEOLOJİ EKSPEDİSİYASININ 2015-2016-cı illərdə APARDIĞI ARXEOLOJİ TƏDQİQATLAR** ............ 221
Ə.H.Babayev, A.M.Məmmədov, H.A.Məmmədzadə

**MİL-QARABAĞ EKSPEDİSİYASI QALATƏPƏ DƏSTƏSİNİN 2015-2016-cı illərdə APARDIĞI ÇÖL TƏDQİQATLARI** ............ 225
T.R.Əliyev, F.İ.Babayev, G.İ.Əliyeva, V.T.Əliyev

**BƏRDƏDƏ 2015-2016-cı illərdə APARILMIŞ ARXEOLOJİ QAZINTI VƏ ÇÖL-TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİ** ............ 234
A.M.Məmmədov, Ə.H.Babayev, T.V.Əliyev, M.İ.Rəcəbov, S.A.Quliyeva, H.A.Məmmədzadə

**DƏLMƏ QALASI ƏTRAFINDA ARXEOLOJİ QAZINTILAR** ............ 246
B.İ.İbrahimli, F.Y.Səfərli, Q.İ.Qədirzadə, C.F.İbrahimova, L.N.Həsənova

**MİL-QARABAĞ ARXEOLOJİ EKSPEDİSİYASI NƏRGİZTƏPƏ DƏSTƏSİNİN 2015-ci il TƏDQİQATLARI** ........ 250
T.R.Əliyev, V.T.Əliyev

**2016-cı ildə ŞAMAXI RAYONUNDA APARILAN ARXEOLOJİ TƏDQİQATLAR** ........ 255
A.A.Quliyev, F.R.Hüseynov, İ.N.Əliyev, S.A.Hüseynov, T.Ə.Quliyev, S.S.Vəkilova, E.N.Həsənov, G.Ə.Quliyeva, V.P.Həsənov

## ORTA ƏSRLƏR DÖVRÜ

**ŞƏMKİR ŞƏHƏR YERİNDƏ APARILAN ARXEOLOJİ TƏDQİQATLAR** ........ 262
T.M.Dostiyev, R.Y.Bəşirov, N.N.Hüseynli, R.H.Mirzəyev

**XARABA GİLAN ORTA ƏSRLƏR ŞƏHƏR YERİNİN I MƏHƏLLƏSİNDƏ 2015-2016-cı illərdə APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLAR** ........ 275
B.İ.İbrahimli, F.Y.Səfərli, T.F.Xəlilov, C.F.İbrahimova

**QƏBƏLƏ ARXEOLOJİ EKSPEDİSİYASININ ORTA ƏSRLƏR DƏSTƏSİNİN 2016-cı ildə APARDIĞI ARXEOLOJİ TƏDQİQATLAR** ........ 282
Q.C.Cəbiyev., E.İ.Abbasova., Ə.H.Qasımzadə

**QUBA, ŞABRAN VƏ XAÇMAZ RAYONLARINDA TƏDQİQATLAR** ........ 291
M.C.Xəlilov, E.B.Cəfərova

**2015-2016-cı illərdə GÜLÜSTAN QALASINDA APARILAN ARXEOLOJİ TƏDQİQATLAR** ........ 298
A.A.Quliyev, F.R.Hüseynov, S.A. Hüseynov, T.Ə.Quliyev, S.S.Vəkilova, E.N.Həsənov, G.Ə.Quliyeva

**2016-cı ildə BAKI XANLARININ SARAY KOMPLEKSİ ƏRAZİSİNDƏ AŞKAR OLUNAN HAMAMDA APARILMIŞ ARXEOLOJİ QAZINTILAR HAQQINDA** ........ 304
İ.N.Əliyev, K.F.İbrahimov, E.M.Axundov

**AĞSU ARXEOLOJİ EKSPEDİSİYASININ 2015-ci ildə APARDIĞI ARXEOLOJİ TƏDQİQATIN NƏTİCƏLƏRİ** ........ 310
Q.C.Cəbiyev, E.İ.Abbasova, F.S.Xəlilli

## YENİ TİKİNTİ SAHƏLƏRİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR

**2015-2016-cı illərdə YENİ TİKİNTİ SAHƏLƏRİNDƏ APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLAR** ........ 318
Q.O.Qoşqarlı, Ş.N.Nəcəfov, V.A.Əsədov, A.M.Ağalarzadə, D.A.Kiriçenko, C.İ.Əliyev, F.S.Fərmanov, Ə.İ.Əbdürəhmanov

## ARXEOLOJİ KƏŞFİYYAT

**2015-2016-cı illərdə İSMAYILLI RAYONUNDA APARILMIŞ ARXEOLOJİ KƏŞFİYYAT İŞLƏRİ** .......... 332
Q.O.Qoşqarlı, T.V.Babayeva, T.D.Babayev, G.R.Əhmədova

**QAZAX VƏ AĞSTAFA RAYONLARI ƏRAZİSİNDƏ 2015-2016-cı illərdə APARILMIŞ ARXEOLOJİ KƏŞFİYYAT İŞLƏRİNİN YEKUNLARI** .......... 336
Ş.N.Nəcəfov

**AZƏRBAYCANIN ŞİMAL-QƏRB BÖLGƏSİNDƏ 2015-2016-cı illərdə ARXEOLOJİ TƏDQİQATLARIN NƏTİCƏLƏRİ** .......... 344
A.M.Məmmədov, İ.M.Quliyeva, S.A.Quliyeva, H.A.Məmmədzadə

**CƏNUB-ŞƏRQİ AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLAR** .......... 351
A.İ.Ələkbərov, A.M.Mirabdullayev, Ş.R.Əhmədova, Ş.R.Ağayeva

**2015-Cİ İLDƏ ŞABRAN RAYONU ƏRAZİSİNDƏ APARILAN ARXEOLOJİ KƏŞFİYYAT İŞLƏRİ HAQQINDA** .......... 365
S.H.Aşurov, N.Ə.Alışov, F.A.Əliyeva, S.A.Hüseynova, T.V.Babayeva

**GƏNCƏ ŞƏHƏRİ VƏ ƏTRAF ƏRAZİLƏRDƏ ARXEOLOJİ KƏŞFİYYAT** .......... 373
F.E.Quliyev, X.İ.Alməmmədov, B.M.Cəlilov, M.M.Hüseynov, P.P.Qasımov, V.A.Ələkbərov, Ş.A.Səlimbəyov

**OĞUZ RAYONU ƏRAZİSİNDƏ 2015-2016-cı illərdə ARXEOLOJİ TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİ** .......... 379
T.V.Əliyev, H.A.Məmmədzadə, N.İ.Mustafayeva, A.X.Həsənova

**QAFQAZ ALBANİYASININ XRİSTİAN ABİDƏLƏRİNDƏ 2015-2016-cı illərdə APARILMIŞ ARXEOLOJİ KƏŞFİYYAT İŞLƏRİ** .......... 392
N.Ə.Alışov

**2016-cı il BEYLƏQAN RAYONU ƏRAZİSİNDƏ ARXEOLOJİ KƏŞFİYYAT İŞLƏRİ** .......... 400
M.M.Mustafayev

## ETNOQRAFİK TƏDQİQATLAR

**QAZAX VƏ AĞSTAFA BÖLGƏSİNƏ 2015-2016-cı illərdə ETNOQRAFİK SƏFƏRLƏRİN HESABATI** .......... 406
T.Ə.Bünyadov, Ş.T.Bünyadova, B.F.Əliyev, S.M.Ağamalıyeva, İ.G.Məmmədova, İ.B.Umudlu

**2015-2016-cı illərdə ETNOQRAFİK EKSPEDİSİYANIN HESABATI** ........ 413
T.A.Babayev, Ə.T.Əliyev, T.S.Şahbazov, H.Ə.Zahidova,
T.N.Quluzadə, B.T.Əmənova

## BEYNƏLXALQ EKSPEDİSİYALAR

**DAMCILI MAĞARASINDA ARXEOLOJİ QAZINTILARIN BƏRPASI** ........ 420
A.Ə.Zeynalov, Y.Nishiyaki, M.M.Mansurov, H.Nakata, K.Şimoqama,
Ç.Akaşi, S.Aray, Y.Hayakawa, M.Ebina, Y.V.Məmmədov,
Ş.A.Səlimbəyov, P.Q.Babai, L.A.Zeynalova

**PREHISTORIC SURVEY AT AVEY MOUNTAIN A WORKING REPORT OF THE 2015 SEASON** ........ 427
Y.Nishiaki, M.Mursagulov, M.Musaguliyev, P.P.Gasimov, Y.V.Mammadov,
Sh.A.Salimbeyov, H.Nakata, K.Shimogama

**KÜLTƏPƏ YAŞAYIŞ YERİNDƏ 2015-2016-cı illərdə APARILAN ARXEOLOJİ ARAŞDIRMALAR** ........ 435
V.Baxşəliyev, C.Marro, R.Berthon, Z.Quliyeva, S.Sarıaltun

**QIZQALASI YAŞAYIŞ YERİNDƏ 2015-2016-cı illərdə APARILAN ARXEOLOJİ ARAŞDIRMALAR** ........ 457
V.Baxşəlıyev, L.Rıstvet, H.Gopnık, J.Swerida, S.Nugent

**ANTİK DÖVR ÜZRƏ LERİK ARXEOLOJİ EKSPEDİSİYASININ AZƏRBAYCAN-ABŞ BİRGƏ TƏDQİQATLARININ İLKİN NƏTİCƏLƏRİ (2016-cı il)** ........ 471
C.T.Eminli, L.Fabian, E.Ə.İskəndərov,
S.Fişman, S.Nuget, T.T.Hüseynova, H.Lau

**BEYNƏLXALQ AZƏRBAYCAN-ALMANİYA ŞƏMKİR-QARACƏMİRLİ ARXEOLOJİ EKSPEDİSİYASININ ÇÖL-TƏDQİQAT İŞLƏRİ HAQQINDA** ........ 478
I.A.Babayev, F.Knauss, K.Kaniuth, Y.Fassbinder
K.Kaniuth, M.Gruber, L.X.Mustafayev, Ü.R.Heydərova, F.İ.Babayev

**AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLAR – 2015-2016**

Bakı, 2017

*AFPoliqrAF* mətbəəsində çap olunmuşdur

Mətbəənin direktoru - F.R.Hüseynov
Texniki redaktor - A.Q.Rəsulov
Dizayn - K.C.Fərhadova

Yığılmağa verilmişdir: 25.04.2017
Çapa imzalanmışdır: 20.09.2017
Qarnitura: Tahoma
Formatı 64x92 $^{1}/_{8}$
Həcmi 31 ç.v.
Tirajı 1000